## ÜMUMİ MÜDDƏALAR

Universitet tərəfindən təşkil edilən konfrans böyük elmi tədbir hesab olunur (ən azı 60 məruzəçinin iştirakı zəruridir), burada təmsil olunan iştirakçılar öz elmi tədqiqatlarının nəticələri ilə bağlı məruzələrlə çıxışlar edir və müzakirələr aparırlar. Konfrans elmi-nəzəri, elmi-praktik, elmi-metodoloji xarakterli ola bilər; mono və ya fənlərarası keçirilə bilər; iştirakçıların tərkibinə görə konfrans (o cümlədən tələbə konfransı) fakültələrarası (universitet), respublika və beynəlxalq ola bilər.

## UNIVERSITET KONFRANSLARININ TƏŞKILI VƏ KEÇİRİLMƏSİ QAYDALARI

1. Hər təqvim ilinin sonunda növbəti il üçün universitet üzrə keçiriləcək elmi konfransların planı tərtib edilir. Plana daxil edilmək üçün müvafiq fakültələrin dekanları konfransın keçirilməsi ilə bağlı təklif ilə universitetin elmi işlər üzrə prorektoruna müraciət edir. Konfransın xarakteri və mövzusu, keçirilmə vaxtı, gözlənilən iştirakçıların tərkibi, onların gözlənilən sayı göstərilməklə qısa plan təqdim edir, nəzərdə tutulan xərclər (o cümlədən nəşr xərcləri) və təşkilat və ya proqram komitələrinin tərkibi barədə təkliflər verir.

2. Konfransların keçirilməsi üçün universitetin illik planı universitetin rektoru tərəfindən bəyənildikdən sonra, cari il dekabrın 1-dək universitetin Elmi Şurası tərəfindən təsdiq edilir.

3. Universitet planına daxil edilmiş hər bir konfransa ən azı 3 ay qalmış konfransın proqramı və təşkilat komitələrinin siyahıları əlavə olunmaqla, onun keçirilməsi haqqında universitet üzrə əmr verilir. Təşkilat (və ya proqram) komitəsinə universitetin rektoru rəhbərlik edir.Təşkilat (və ya proqram) komitəsinə universitetin elmi işlər üzrə prorektoru, beynəlxalq əlaqələr üzrə prorektoru və konfransın keçirilməsi təşəbbüsü ilə bağlı ərizə vermiş fakültənin dekanı da daxil edilir. Tələbə konfranslarının keçirilməsi zamanı proqram komitəsinə bütün iştirakçı fakültələrin dekanları da daxil edilə bilər.

4. Qeydiyyat haqqı və konfrans materiallarının nəşri üçün ödəniləcək vəsait konfransın başlanmasına ən azı 15 gün qalmış universitet hesabına nağdsız qaydada ödənilir. Eyni zamanda konfransın yenilənmiş xərclər smetasının tərtib edilməsi üçün iştirakçıların siyahıları və qeydiyyat rüsumlarının, həmçinin məqalə və ya tezislərin çapı üçün ödənişə dair qəbzlərin surətləri universitetin maliyyə şöbəsinə göndərilir.

5. Konfransın proqramı və ona daxil edilmiş məruzələrin tezisləri dərc olunur. Heç bir ödəniş və qeydiyyat haqqının toplanmadığı tələbə elmi konfransları üçün

universitetin saytında və bütün iştirakçı fakültələrin internet platformasında (saytında) elektron nəşri həyata keçirilə bilər. Tələbələrin bütün tezisləri və yaxud məruzə mətnlərinin hər biri elmi rəhbər və ya müvafiq elm sahəsi üzrə mütəxəssis tərəfindən yazılı şəkildə təsdiq edilmiş və imzalanmış olmalıdır.

6. Tələbə konfranslarında mükafata layiq görülmüş məruzələr müvafiq fakültələrin internet saytlarında dərc olunur (elektron formada). Ən yaxşı məruzələr universitetin müxtəlif nəşrlərində dərc oluna bilər.

7. Konfransdan sonra onun təşkilinə məsul şəxslər konfransın keçirilməsi və əsas nəticələri barədə universitetin rektoruna və Elmi Şurasına hesabat təqdim edirlər.

8. Maliyyə-təsərrüfat bölməsinin rəhbəri konfransa ayrılmış və toplanmış vəsaitin xərclənməsi haqqında hesabatı universitetin rektoruna təqdim edir.

9. Universitetdə keçirilmiş konfrans haqqında məlumatın etibarlılığına, tamlığına və düzgünlüyünə görə məsuliyyət onun təşkilinə cavabdeh olan şəxslərin üzərinə düşür.

## FAKÜLTƏ ELMİ KONFRANS VƏ TƏDBİRLƏRİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

Fakültədə təşkil olunan elmi və elmi-metodiki seminarlar, dəyirmi masalar, elmi diskussiyalar, elmi mütaliələr, yay məktəbləri, müzakirə klubları və s. əsasən fakültə kafedralarının professor-müəllim heyəti və BSU-nun magistr və doktorantları üçün nəzərdə tutulur. Fakültədaxili tədbirlər BSU-nun digər fakültə və bölmələrinin professor-müəllim heyətinin və əməkdaşlarının, həm də respublika ali məktəblərindən və elmi institutlardan alimlərin cəlb olunması ilə də təşkil oluna bilər. Zərurət olduğu hallarda belə tədbirlərə xarici ölkələrin BSU ilə əməkdaşlıq etdiyi universitetlərdən həmkarlar da dəvət oluna bilər. Fakültədə keçirilən tədbirlərə bilavasitə həmin fakültənin dekanı cavabdehlik daşıyır və görülmüş işlər haqqında universitetin rektoruna və Elmi Şuraya hesabat verir.

## TƏLƏBƏ ELMİ KONFRANS VƏ TƏDBİRLƏRİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

Tələbə tədbirlərinin birinci istiqaməti elmi-praktiki ola bilər, burada tələbələr müəyyən elm sahəsi üzrə mütəxəssisin rəhbərliyi altında apardıqları elmi tədqiqatların nəticələrini təqdim edirlər. İkinci istiqamət tədris-praktiki tədbir ola bilər. Burada tələbələr məruzələrində digər alimlərin nailiyyətlərini təqdim edirlər və tədqiq olunan elm sahəsinə dair bilik və səriştələrini nümayiş etdirirlər.

## KAFEDRA TƏRƏFİNDƏN TƏKLİF OLUNAN ELMİ-METODİKİ, TƏDRİS-METODİKİ, TƏDRİS-PRAKTİKİ VƏ DİGƏR TƏDBİRLƏRİN TƏŞKİLİ

1. Kafedralar hər təqvim ilinin sonunda növbəti il üçün nəzərdə tutulan elmi-metodiki və tədris-metodiki, tədris-praktiki və ya digər xarakterli kafedra tədbirləri barədə məlumatı fakültə dekanlığına təqdim edirlər.

2. Kafedra tədbirlərinin keçirilməsinin illik planı fakültənin Elmi Şurası tərəfindən təsdiq edilir.

3. Əgər tədbir universitet səviyyəsində keçirilirsə, o zaman universitetin rektoruna rəsmi şəkildə müraciət olunur və tədbirin keçirilməsi ilə bağlı universitet üzrə rektorun müvafiq əmri verilir.

4. Kafedra tədbirlərinin təşkilat və ya proqram komitəsinin tərkibinə (əgər bunlar varsa) fakültə dekanı və onun tərbiyə işləri üzrə müavini daxil edilir.

5. Tədbirin proqramı fakültənin rəsmi internet saytında dərc olunub.